# GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİN MİR CƏLAL PAŞAYEV HAQQINDA SÖYLƏDİKLƏRİ

Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanımızda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatımızdan keçir. Bu, bizim şairlərimizin, yazıçılarımızın əsərlərinin hamısından keçibdir. Klassik adlandırdığımız Səməd Vurğunun, Rəsul Rzanın, Mir Cəlalın, İlyas Əfəndiyevin, Osman Sarıvəllinin, Süleyman Rəhimovun, Mehdi Hüseynin də əsərlərindən yan keçməyibdir...

**Heydər Əliyev,**
**Ümummilli Lider**

XX əsr milli ədəbi-bədii fikir tarixinin görkəmli nümayəndəsi, yazıçı Mir Cəlal Paşayev Azərbaycan ədəbiyyatının inkişafı və onun məzmunca zənginləşməsində mühüm rol oynamışdır. Xalq yaradıcılığı ilə klassik bədii irsin qabaqcıl ənənələrinin vəhdətini yeni formada yaşadan və ədəbiyyata həyat gətirmiş yazıçı kimi tanınan Mir Cəlal Paşayev eyni zamanda görkəmli tədqiqatçı alim olmuşdur.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Onun əsərləri bütöv bir dövrün mənzərəsini yaradır. O, böyük pedaqoq kimi Azərbaycan cəmiyyəti üçün minlərlə açıqfikirli tələbə yetişdirmişdir.

**Mehriban Əliyeva,**
**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti**

Mir Cəlal müəllimi bir yazıçı kimi, bir ədib kimi xarakterizə etmək üçün bu başdan deyim, onun həyatı çox qəribə olub. O, bir insan yox, üç insanın həyatını yaşayıb. Mən deyərdim ki, Mir Cəlal müəllimin romanist və novellist kimi ədəbi-bədii yaradıcılığı eyni səviyyədə keçib. Bu, bir tərəfi. İkinci tərəfdən - böyük ədəbiyyatşünas alim olub. Onun əsərlərində bizim böyük klassiklərimizə dair tənqidləri, təhlilləri var. Üçüncüsü də böyük bir pedaqoq, müdrik bir müəllim olub. Bu üç həyatı bu insan yaşayıb. Onun fəaliyyətində bu üç həyat bir-birini elə tamamlayırdı ki, bir-birinə elə bağlı idi ki, vahid bir Mir Cəlal obrazı yaranırdı.

**Arif Paşayev,**
**akademik**

Mir Cəlalın yaradıcılığının şahidi olmaq, əksər əsərlərinin ilk oxucusu olmaq taleyin mənə bəxş etdiyi xoşbəxtlik idi.

**Hafiz Paşayev,**
**professor**

Məlumdur ki, böyük və qızıl dövrləri bir hadisə və yaxud bir insan deyil, məhz kompleks şəkildə yaranan mədəni hadisələr və böyük şəxsiyyətlər toplusu meydana gətirir. Mir Cəlal Paşayev də XX əsr Azərbaycan tarixinin böyük və zirvə şəxsiyyətlərindən biridir.

***

Mir Cəlal deyəndə, hər şeydən əvvəl, gözəl romanlar və hekayələr müəllifi olan ədib təsəvvürümüzdə canlanmış olur. Çünki o, xalqımızın bədii yaddaşında ictimai tariximizin, xalq taleyinin mühüm problemlərini təhlil edən, həyat və tarix haqqında xalqı ilə ürəkdən, səmimi dərdləşə bilən, onunla sevinc və dərd şəriki olan ustad sənətkar kimi silinməz izlər buraxmışdır.

**Nərgiz Paşayeva,**
**Akademik**

Mir Cəlalın qəhrəmanları olduqca təbii, inandırıcı, koloritli bir şəkildə danışırlar... Mir Cəlal peyzajı da canlı və təbii verir, peyzaj əsərdəki hadisələrlə o dərəcədə bağlıdır ki, o, əsərin ayrılmaz, üzvi bir parçasına çevrilir.

**Məmməd Arif,**
**akademik**

Azərbaycan xalqının XX əsrin sonlarında qazandığı müstəqillik heç şübhəsiz, bir neçə yüzillik tarixi olan milli-azadlıq ideallarına, bu ideallarin həyata keçirilməsi uğrunda aparılmış ardıcıl mübarizələrə əsaslanır. Və həmin ideallarin təmərküzləşib daha məqsədyönlü xarakter almasında, bu və ya digər dərəcədə kütləviləşib ümumxalq səciyyəsi daşımasında XX əsrin əvvəllərindən başlayaraq sürətlənən ictimai-siyasi, mənəvi-mədəni və ideoloji proseslər xüsusi rol oynamış, öndə gedərək xalqa doğru yol göstərmək missiyasını mütəvaze bir məsuliyyətlə yerinə yetirən ziyalı mütəfəkkirlər yetişmişdir ki, onlardan biri də böyük ədibimiz Mir Cəlal Paşayev olmuşdur.

**Nizami Cəfərov,**
**akademik**

Mir Cəlal intizar səhnələri yaratmağı sevir. Hekayələrində də nəzərə çarpan bu cəhət roman və povestlərində özünü daha çox hiss etdirir.

**Cəfər Xəndan,**
**professor**

Mir Cəlal intellektual aləmi zəngin və müxtəlif sahəli yazıçılarımızdandır.

**Abbas Zamanov,**
**professor**

Alim Mir Cəlal Paşayevin elmi əsərlərinin dili, üslubu öz qələm yoldaşlarının heç birinin dilinə, üslubuna oxşamır. Onun əsərlərində nə publisistika var, nə də qəliblənmiş elmi termini tədqiqat dili. O, elmi əsərlərini yazıçı Mir Cəlalın qələmindəki yığcamlıq və şirinliklə, amma dərin axıcı eli mühakimə tutumu olan dillə yazardı. Bu yazı indi də təkraredilməz örnəkdir.

**Pənah Xəlilov,**
**professor**

Mir Cəlalın insanlara, iş yoldaşlarına, ümumən onunla az və ya çox dərəcədə əlaqədar olan adamlara aydın, açıq münasibəti var idi.Adamlara şəxsi keyfiyyətinə, savadına, intizamına tapşırılan işi yerinə yetirmək qabiliyyətinə görə münasibət bəsləyirdi.

**Yusif Seyidov,**
**professor**

Professor Mir Cəlal Paşayev geniş yaradıcılıq fəaliyyətinə malik olan bir şəxsiyyət idi: O, görkəmli yazıçı, tanınmış nəzəriyyəçi filoloq alim, nümunəvi müəllim kimi xatirələrdə əbədi yaşayır. Mir Cəlal müəllim nəzəri filoloq olmaqla yanaşı, çox gözəl müəllim kimi tanınırdı. O, təkcə bilik vermir, eyni zamanda hərəkətləri, adamlara münasibəti ilə tərbiyə edirdi

***

Professor Mir Cəlal müəllimin mülayimliyi, humanizmi onun ciddiyyətinə, obyektivliyinə qətiyyən mane olmurdu. O, bu mülayimliyi ilə yanaşı, olduqca prinsipial və obyektiv bir şəxsiyyət idi.

**Şəmistan Mikayılov,**
**professor**

Mir Cəlalın "Füzuli sənətkarlığı" monoqrafiyası Füzuli ədəbi irsini öyrənmək, mənimsəmək və dərk etmək üçün elmi açardır.

**Qara Namazov,**
**professor**

Elmi ədəbiyyata bələd olduqca Mir Cəlal müəllimin bir alim kimi dərin zəkasına, analitik təfəkkürünə, erudisiyasına, zəhmətkeşliyinə heyran olurdum. O, təkcə istedadlı müəllim, yazıçı deyilmiş, həm də mütəfəkkir ədəbiyyatşünas-alim imiş. Bunu mən onun ədəbi məktəblər haqqında yazdığı monumental tədqiqat əsərini, Məhəmməd Füzuli irsi, Cəlil Məmmədquluzadə realizmi, Nəriman Nərimanovun bədii yaradıcılığı və s. elmi araşdırmalarını oxuduqca, sanki kəşf etdim.

**Teymur Əhmədov,**
**professor**

Mir Cəlalın romanlarında bədii təsvirin rəngarəng lövhələri bədii süjetin əsas, aparıcı atributudursa, hekayələrində bədii təhkiyə əsasdır. Bu təsadüfi deyildir. Romanın vüsətli, epik imkanları, xüsusən süjetin əhatəli olması, təfərrüatlı təsvirlərə ehtiyac yaradır. Hekayə isə lakonizm modelidir. Burada ustad məharəti səciyyəvi lakonizmdədir, fikrin sərrast dəqiqliyindədir... Bu cəhətdən Mir Cəlal yaradıcılığı klassik nəsrimizin bu günə olan kamil ənənə körpüsüdür!

***

Mir Cəlal müəllim hər şeydən əvvəl çox orijinal və qüdrətli bir pedaqoq idi. O, təbiəti, davranışı və əməlləri ilə tələbələrinə ibrətli, təsirli örnək idi. Aspirant olanda da, müəllim kimi bir yerdə işləyəndə də hər bir fikrimizi, hərəkətimizi yerindəcə, "redaktə" etməyi unutmazdı. Həyata, yaradıcılığa böyük amallarla, müqəddəs ideyalarla baxardı və tələbələrinə də bunu təlqin edərdi.

**Təhsin Mütəllimov,**
**professor**

Mir Cəlal müəllim bir insan kimi çox sakit, işıqlı, müdrik simaya malik idi. Onun üzündə, gözlərinin dərinliyində daim işıqlı, munis, nurlu bir təbəssüm olardı.

**Şamil Salmanov,**
**professor**

Qısa və mənalı yazmaqda Füzulini, Mirzə Cəlili, Sabiri həmişə, hamıya örnək hesab edər, nümunə göstərərdi. Füzuli poeziyası və poetikasının incəliklərini ümumiləşdirən tədqiqat əsəri ilə ədib özünü böyük qəlb şairinin incə bilicisi kimi tanıtmışdı.

***

Mir Cəlal müəllim mənəvi cəhətdən saf, təmiz bir insan idi. Tamah hissindən uzaq, az-çoxa qane olan, gözü-könlü tox, təmiz bir ziyalı idi.

**Firidun Hüseynov,**
**professor**

Şeirdən, sənətdən danışanda, həmişə ədəbiyyatın bəzi problemlərinə də toxunar, nəzəri məsələləri çox sadə bir tərzdə izah edərdi. Çox vaxt bizə bu fikri aşılamağı çalışardı ki, ədəbiyyata təsadüfi gəlib çıxanlar gec-tez səhvini anlayıb uzaqlaşacaq və sevdiyi sahəni özü axtarıb tapacaqdır.

**Əmirxan Xəlilov,**
**professor**

Bəli, mən onun çoxsaylı əsərlərini, bədii və elmi araşdırmalarını oxuduqca, onun manifestini görürəm. Hörmətli müəllimlərim və dostlarım, professorlar Teymur Əhmədovun, Qara Namazovun, Vaqif Vəliyevin, mərhum Firidun Hüseynovun xatirələri mənim ürəyimdəki müəllim heykəlini, sadə insan obrazını daha da nurlandırıb. Bu nurlu obraz – Mir Cəlal müəllimdir. Dodağından təbəssüm düşməyən hörmətli Mir Cəlal müəllim. Onun yazdıqları və bizə dedikləri isə mənalı bir ömrün manifestidir.

**İsmayıl Vəliyev,**
**professor**

Milli dəyərlərin, Azərbaycançılıq ideyasının qorunub-saxlanması və inkişafında, nəsillərdən nəsillərə ötürülməsində böyük xidmətləri olan ədiblərdən biri, Ulu Öndərin göstərdiyi kimi, bugün xatirəsini sevgiylə andığımız Mir Cəlaldır. Həm də yalnız yazıçı olaraq yox, filologiya elmləri doktoru, professor, Azərbaycanın Əməkdar Elm xadimi Mir Cəlalın geniş və zəngin fəaliyyətinin hər üç qolunda: yazıçı olaraq - ədəbiyyat sahəsində, ədəbiyyatşünas və tənqidçi kimi filoloji-humanitar fikirdə, pedaqoq olaraq - maarif və təhsil sahəsində. Fəaliyyətinin hər bir sahəsində Mir Cəlal öz möhürünü qoymuş, adını, imzasını XX əsr Azərbaycan ədəbiyyat və elm tarixinə yazmışdır.

**Tehran Əlişanoğlu,**
**professor**

Mir Cəlal Molla Nəsrəddin ədəbi məktəbinin yaradıcılıq ənənələri kontekstində formalaşmış yazıçı, alim və maarif xadimi idi. O, öz pedaqoji fəaliyyətində XIX əsr maarifçiliyinin bədii-tarixi ənənələrini, daha çox XX əsrin əvvəllərində məşhur olan A.Şaiq, M.T.Sidqi, C.Cəbrayılbəyli, R.Əfəndiyev və s. kimi müəllim-ədiblərin nurlu ənənələrini davam etdirirdi.

Mir Cəlal Azərbaycan ziyalısının ən gözəl xüsusiyyətlərini - xalqa bağlılığı, millətkeşliyi, sadəlik və müdrikliyi, təvazökarlığı inadkar bir inamla qoruyub saxlayır, ədəbi-bədii və nəzəri fikrin milli müəyyənliyini mühafizə edirdi.

**Fəridə Səfiyeva,**
**professor**

Mir Cəlal görkəmli ALİM idi. Alim sözünü böyük hərflərlə nəzərə çarpdırmağımın və ondan əvvəl görkəmli təyinini işlətməyimin səbəbi var. Mir Cəlal yazıçı olmasaydı belə, biz ondan elmdə müəyyən iz buraxan görkəmli bir alim kimi söz açardıq.

**Vaqif Yusifli,**
**filologiya elmləri doktoru**

Mənim təsəvvürümdə gecə-gündüz tanımadan qələm işlədən Mir Cəlal ölməzdir. Yetkinliklə, dolğunluqla qələm işlədən, özündən sonraya cild-cild ölməz əsərlər qoyan ədib də bir yolluq ölərmi, unudularmı? Yox! Ölməz, unudulmaz, onun bu dünya üzündə ədəbiləşən yeri vardır, onun ədəbiləşən surəti öz əsərlərində yaradılmışdır. Məncə, gözəl insan, gözəl ailə başçısı Mir Cəlal öz əsərlərində, elmi tədqiqatlarında yaşayacaqdır.

**Süleyman Rəhimov,**
**Xalq yazıçısı**

Aldığımız cəbhə məktubunda bir döyüşçü yazır ki, Mir Cəlalın "Vətən yaraları" hekayəsini oxuduqdan sonra mən düşmənə qarşı daha kinli və amansız oldum.

**Səməd Vurğun,**
**Xalq şairi**

Mir Cəlalın "Bir gəncin manifesti" əsəri otuzuncu illərdə yaranan Azərbaycan romanının ən yüksək mərhələsi idi.

**Mehdi Hüseyn,**
**Xalq yazıçısı**

Oxucunun etimadını, xalqın hörmətini qazanmaq o qədər də asan iş deyil. Xalq işində yüksək məsuliyyət hissi, düzlük, doğruluq, çörəyi halal, əməyə bağlılıq, sənətin mücahidi ola bilmək, böyüyə hörmət, kiçiyə mərhəmət, ailəyə sədaqətli olmaq kimi yüksək insani keyfiyyətlərlə zəngin olan gənc qələm sahibi Mir Cəlal, illər keçdikcə sözünə, nəsihətinə ehtiyac duyulan ağsaqqala çevrildi.

**Mirvarid Dilbazi,**
**Xalq şairi**

1961-ci ildə Azərnəşrdə onun "İnsanlıq fəlsəfəsi" adlı kitabı çap olunmuşdu. Onu vərəqlərkən 1937-ci ildə Qiyabi İnstitutun Şəki sessiyasında dediyi sözlər yadıma düşdü: "Məktəblərdə mütləq "İnsanlıq" bir predmet kimi təlim olunmalıdır".

***

İnsanlıq və insanlıq fəlsəfəsi onun əsərlərində həmişə qırmızı bir xətlə keçirdi.

**Qılman İlkin,**
**Xalq yazıçısı**

Mir Cəlal müəllim dünyasını çox tez dəyişdi. Ancaq o bir ömürdəneçə ömür yaşadı: gözəl bir alim, qüdrətli sənətkar və ən başlıcası, ləyaqətli və heç zaman unudulmayan bir insan ömrü...

**Balaş Azəroğlu,**
**Xalq şairi**

Mir Cəlal yaradıcılığının ən üstün cəhətlərindən biri də onun təmiz, şaqraq və büllur dili idi. Onun dili, xalq danışıq tərzinə uyğun, son dərəcə canlı, təbii ifadələrlə zəngin və bədii dildir.

**Bəxtiyar Vahabzadə,**
**Xalq şairi**

Mir Cəlal sənətkardır, yaradıcıdır. Onun romanının hər bir sözü öz tərcümeyi-halının bir hissəsi kimi görünür, canlı və səmimi həyacanı dərhal oxucuya təsir edir.

**İsa Hüseynov,**
**Xalq yazıçısı**

Mir Cəlal müəllim həqiqətən peyğəmbər təbiətli insan idi. Xeyirxahlıq onun canında, qanındaydı. Mir Cəlal müəllim insanpərvər idi. İstedadlı adamların qədrini bilirdi.

**Nəriman Həsənzadə,**
**Xalq şairi**

Mir Cəlal əsərlərində insan hisslərini təbiətdən ayırmayıb, harmoniyada təsvir edib, onun üçün Günəş, Ay, Meşə, Quşlar, Sular rəmzi məna daşıyıb, insan xarakterinin açılmasını əyaniləşdirib. Əsərlərində təbiətin predmetləri öz funksiyalarını yerinə yetirib.

**Allahverdi Eminov,**
**yazıçı**

Dil amili, sənət ucalığı, klassik irsə və ənənəyə bağlılıq, təqlidçilikdən qaçmaq, dövrün yenilikçi ruhunu duymaq səriştəsi və s. Mir Cəlalın dəqiq meyarlar sistemində ədəbi fakta, ədəbi prosesə yanaşmasının ahəngi dəyişməzdir. Sənət kredosu bu ali ölçüləri meyara çevirdiyi üçün yaşarıdır. Ona görəistər bədii, istərsə də elmi-nəzəri irsi zamanla səsləşir, milli düşüncə tariximizin bugünündə inamla iştirak edir, əsrlərlə yol gedə, Yol ola bilir.

**Elnarə Akimova,**
**Milli Məclisin deputatı**

Qalın deyil, qalan kitabların müəllifi Mir Cəlal bu dünyaya mənsub olduğu millətin Əbədiyyət dastanını yazmağa gələnlərdən idi. Gəldi, yazdı, bütövlüyün, birliyin, diriliyin şərbətini içirib getdi!

**Şərəf Cəlilli,**
**filologiya üzrə fəlsəfə doktoru**